Demoqrafiya problemləri qlobal aspektdə

Rövşən Hacıyev

Azərbaycan Milli Elmlər Akademiyası,
Fəlsəfə İnstitutu

Müasir dövrün qlobal prosesləri içərisində demoqrafik problem özünəməxsus yer tutur. Bəzi tanınmış mütəxəssislər bu problemi hətta müasir dövrün əsas qlobal problemi kimi qəbul edirlər (5, s.207). Belə bir mövqenin nə dərəcədə doğru olduğunu verifikasiyaya məruz qoymadan qeyd edək ki, demoqrafik problem şübhəsiz ki, öz aktuallığı ilə müxtəlif elm sahələrini təmsil edən mütəxəssislərin daim diqqət mərkəzində saxlanılmaqdadır. Son dövrlərdə bu problemin həllinə həmçinin dəqiq elmlərin bəzi nümayəndələrinin də maraq göstərməsi diqqəti çəkir. Onların demoqrafik problemin çözümü ilə bağlı fikirləri və əhali sayının artım dinamikasının müəyyən edilməsinə istiqamətlənmiş yanaşmaları orijinallığı ilə seçilir. Yuxarıdakı fikirlərdən irəli gələrək adı çəkilən məqalədə bir sıra tanınmış mütəxəssislərin demoqrafik problemin bəzi aspektlərinə dair baxışlarının təhlilinə cəhd ediləcəkdir.

Məlumdur ki, demoqrafik problemi, konkret desək, əhali artımı məsələsini ictimai inkişafın ciddi problemi kimi ilk dəfə ortaya qoyan və onu əsaslandıran (XVIII əsrin sonlarında) ingilis keşişi T.R.Maltus olmuşdur. Onun məlum nəzəriyyəsinə görə, əhalinin çoxalması həndəsi silsilə ilə, onun qida ilə təmin olunması imkanları ədədi silsilə ilə artdığı üçün gələcəkdə ortaya çıxacaq qlobal təhlükələrin qarşısını müharibə və digər antihumanist vasitələrlə almaq olar (8, s.254). Lakin Maltusun qaldırdığı bu problem öz humanist və eyni zamanda qlobal əhəmiyyətini yalnız XX əsrin ikinci yarısında, xüsusən məşhur "Roma Klubu"nda səsləndirilmiş çıxışlarda tapmışdır. Bu məsələyə ictimai elmlərin nümayəndələri ilə yanaşı bir sıra təbiətşünas alimlər də böyük maraq göstərmişlər. Son dövrlərdə bu məsələyə davamlı şəkildə və sinergetik prizmadan yanaşan tanınmış təbiətşünas alimlərdən S.P.Kurdyumovun, Q.Q.Malinetskinin və xüsusən də S.P.Kapitsanın tədqiqatlarını qeyd etmək olar. Adları çəkilən müəlliflərin birgə nəşr etdirdikləri kitabda (5, s.206-277) demoqrafik problemin bir sıra aspektləri və xüsusən də əhali artımının inkişaf dinamikasını səciyyələndirən riyazi düsturlar çıxarılmış və bu əsasda bəşəriyyətin sayının keçmişdəki, indiki və gələcəkdəki göstəricilərinin əldə olunmasına cəhd edilmişdir. Həmin kollektiv monoqrafiyada əldə edilən mühüm nəticələr kimi müasir bəşəriyyətin vahid sistem halında

öyrənilməsi işinin sinergetik yanaşma prizmasından nəzərdən keçirilməsi və əhali sayının artımının xarici deyil, məhz daxili amillərdən asılı olması ideyasının əsaslandırılması və bu zəmində demoqrafik imperativ prinsipinin irəli sürülməsi məsələlərini göstərmək olar. Qeyd edək ki, sosiomədəni proseslərin daxili amildən irəli gələrək izah olunması səyləri bəşəriyyətin intellektual inkişafı ilə bağlı tərəfimizdən irəli sürülən elmi hipotezanın məğzinə də müvafiqdir (10). İndi isə adlarını qeyd etdiyimiz müəlliflərə müraciət edək: "Tərəfimizdən irəli sürülən model paradoksal şəkildə bütün tarix boyu inkişaf prosesinin xarici amillərdən asılı olmamasını göstərir, yəni əhali artımının sistemin daxili xüsusiyyətləri ilə müəyyən edilməsinə dəlalət edir"(5, s.278).

Monoqrafiyada diqqəti ilk növbədə çəkən mühüm məqamlardan biri demoqrafik inkişaf problemini sistem yanaşma prizmasından dərk etmək cəhdləri ilə bağlıdır. Bu istiqamətdə fundamental tədqiqatları ilə çıxış edən ilk mütəxəssislərdən biri tanınmış iqtisadçı-alim A.Q.Vişnevskiy olmusdur (2). Vişnevskinin sistemli-tarixi yanaşmasından (2, s.3) irəli gələn S.P.Kapitsa bəşəriyyətin artım dinamikasını riyazi düsturlar vasitəsilə mərhələli şəkildə təhlil etməyə çalışmış və bu istiqamətdə konkret göstəricilərin əldə edilməsinə səy göstərmişdir. Lakin bu dəyərli tədqiqat işində, zənnimizcə, bəzi məqamlar lazımı dərəcədə nəzərə alınmamışdır.

Məsələ burasındadır ki, sistem anlayışını bəşəriyyətə şamil edərkən Kapitsanın özünün də qeyd etdiyi kimi, sistemi təşkil edən elementlər arasındakı qarşılıqlı əlaqələri zəruri şəkildə nəzərə almaq lazımdır. Bu münasibətlə Kapitsa haqlı olaraq aşağıdakıları bildirir: "Hamının vahid halda birləşməsini təmin edən nəqliyyat və ticarət əlaqələri ilə, miqrasiya və informasiya axını ilə şərtlənən müasir dövrümüzün məhz qarşılıqlı əlaqə və qarşılıqlı asılılıqda olması təkzibedilməz şəkildə belə deməyə əsas verir ki, hazırkı dünya qlobal bir sistemdir"(5, s.214-215). Fikirlərini davam etdirən görkəmli alim daha sonra sistem anlayışının nədənsə qədim dövrlərə şamil edilməsini məqbul saymışdır. Halbuki, özünün də qeyd etdiyi kimi, daş dövründə ibtidai icmalar bir-birindən təcrid edilmiş halda yaşamışlar. Bu faktı təsdiq edən çoxlu sayda konkret arxeoloji materiallar vardır (3, s.206). Həmin arxeoloji materiallardan məlum olur ki, neolit inqilabına qədər ibtidai icmalar arasındakı əlaqələr təsadüfi və epizodik səciyyə daşımışdır. Belə olan halda daş dövründəki insanların vahid sistem halında öyrənilməsi nə dərəcədə doğrudur? Axı o dövrdə sistemin elementləri arasında qarşılıqlı təsir və əlaqə yox dərəcəsində olmuşdur. Nəinki neolit, hətta ilk sivilizasiyalar dövründə belə, yəni yazılı tarixin başlanğıc dövründə mövcud lokal sosiomədəni supersistemlər arasındakı əlaqələr təsadüfi xarakter daşımış (məs. Çin və Yaxın Şərq) və bəzi hallarda heç baş tutmamışdır (Avroasiya və Mezoamerika sivilizasiyaları). Bu barədə görkəmli politoloq S.Hantinqtonun məlum əsərində konkret şəkildə məlumat verilmişdir (9, s.59-62).

Zənnimizcə, Kapitsanın nəzərdən qaçırdığı daha bir mühüm məqam "bəşəriyyət" anlayışının məzmunu ilə bağlıdır. Bəşəriyyət dedikdə, vahid bioloji növ, yəni Homo

sapiens və ya neoantropdan ibarət insanlar toplusu nəzərdə tutulur. Bu barədə Kapitsa özü də konkret və doğru bilgilər verir (5, s.215). Sonrakı mühakimələrində Kapitsa bəşəriyyətin artım dinamikasını əks etdirən riyazi düsturların çıxarılmasına cəhd göstərir, lakin, bununla kifayətlənmir. O, daha sonra həmin düsturlardan istifadə edərək, antropogenezin bütün mərhələlərində yaşamış insankimilərin, yəni hominidlərin də əhali sayını müəyyən etməyə çalışır. Bu isə, zənnimizcə, metodik baxımdan doğru yanaşma hesab edilə bilməz. Məsələ burasındadır ki, neoantropun erkən inkişaf dövrlərinə xas həyat tərzini canlandırmaq üçün, o cümlədən ibtidai icmaların sayını müəyyən etmək üçün arxeoloji materiallarla yanaşı etnoqrafik tədqiqatlardan da geniş şəkildə istifadə edilir. Lakin, o da məlumdur ki, neoantropdan başqa hominidlər nəslindən olan digər bioloji növlərin nümayəndələri artıq çoxdandır yer üzündə yaşamırlar. Onların son nümayəndələri (məs., neandertallar) artıq 30 min il bundan əvvəl tarix səhnəsindən yox olmuşlar. Belə olan təqdirdə, nəinki Homo habilislərin, hətta neandertalların da sayını adekvat şəkildə üzə çıxarmaq imkan xaricindədir. Neandertalların icmalarında yaşamış əhali sayının orta göstəricisi yalnız məhdud miqdarda aşkara çıxarılmış arxeoloji materiallar əsasında müəyyən edilir. Bu zaman neandertalların yaşadıqları mağaralardakı və ya müxtəlif düşərgələrdəki orta əhali sayı təqribi şəkildə hesablanır (daha çox isə homo sapiensin təşkil olunduğu icmalardakı əhali sayına müvafiq olaraq). Biz isə bilirik ki, riyazi düsturlar yalnız dəqiq rəqəmlər olduğu təqdirdə adekvat nəticə verir və ilkin məlumatlardakı cüzi xəta hesablama sayəsində yanlış nəticələrin əldə edilməsinə yol açır. Bu yanlışlığın ortaya çıxması Kapitsanın əldə etdiyi nəticələrdə də özünü büruzə verir. Bu da təsadüfi deyil, çünki, Kapitsa tez-tez antropogenez ilə bəşəriyyət anlayışlarını eyniləşdirir. Bu xəta beş saylı cədvəlin adında da özünü aydın şəkildə büruzə verir. Cədvəlin adında bu sözləri oxuyuruq: "bəşəriyyətin inkişafı loqarifmik miqyasda" (5, s.244). Halbuki bu cədvəldə ifadə edilən əhali sayının inkişaf dinamikası bəşəriyyəti deyil, antropogenez prosesini nəzərdə tutur. Yəqin bu səbəbdəndir ki, cədvəldə göstərilən məlumatlar həqiqəti olduğu kimi əks etdirə bilmir, çünki bəşəriyyətin artım dinamikasını əks etdirən riyazi düsturlar metodik baxımdan yanlış olaraq antropogenezin digər mərhələlərinə də şamil edilir. Məsələn, 5 saylı cədvəldə göstərilir ki, mezolit dövrü 29 min il bundan əvvəl başlamışdır və 20 min il davam etmişdir. Halbuki arxeologiya sahəsinə dair sanballı mənbələrdən məlum olduğu kimi, mezolit dövrü 12 min il bundan əvvəl başlamışdır (7, s.172) və müxtəlif regionlardan asılı olaraq fərqli zamanlarda başa çatmışdır. O cümlədən neolit dövrünün başlanğıc tarixi düzgün müəyyən edilsə də (9 min il bundan öncə), onun davam etməsi müddəti 7 min ilə bərabər tutulmuşdur ki, bu da arxeoloji materiallara uyğun gəlmir. Belə ki, neolit dövrünün davam etməsi müddəti müxtəlif regionlarda təqribən üç-dörd min ilə bərabər bir dövrü əhatə etmişdir. Eynilə, mezolit həyat tərzi müxtəlif regionlarda fərqli zamanlarda təzahür etsə də, onun davam etməsi müddəti həmin bölgələrin hər birində 3-4 min ildən artıq olmamışdır (4, s.255; 6, s.106, s.132, 154). Bir sözlə, Kapitsanın istifadə etdiyi riyazi düsturlar yalnız homo sapiensin və ya neoantropun əhali sayına, yəni bəşəriyyətin artım dinamikasının mərhələli şəkildə müəyyən edilməsinə adekvat şəkildə şamil oluna bilər. Bu isə faktiki olaraq yaxın 40 min illik bir dövrü əhatə edir. Riyazi düsturların daha dəqiq işləməsi

üçün isə yalnız neolit dövründən başlayaraq, yəni 9 min illik bir müddəti nəzərə alıb əhali sayının artım dinamikasını böyük xətalara yol vermədən müəyyən etmək olar. Öz riyazi hesablamalarında məhz belə bir doğru yanaşmadan irəli gələn tanınmış alim isə adını yuxarıda qeyd etdiyimiz Vişnevskiy olmuşdur.

Əhali artımı ilə bağlı Vişnevskinin yanaşması doğru olaraq yalnız homo sapiensin yaşadığı müddəti nəzərdə tutur və bəşəriyyətin inkişafındakı yaxın 40 min illik bir dövrü əhatə edir. Öz fundamental monoqrafiyasında Vişnevskiy bir sıra mühüm anlayışları elmi dövriyyəyə daxil edir ki, onlardan *demoqrafik sistem* anlayışı mühüm əhəmiyyət kəsb edir. Vişynevskiy haqlı olaraq demoqrafik sistemi cəmiyyətin alt sistemi kimi qəbul edir və onun digər alt sistemləri ilə (iqtisadi, sosial və b.) qarşılıqlı əlaqələrini hərtərəfli şəkildə nəzərdən keçirir (2, s.8-9). Vişnevskiy göstərir ki demoqrafik sistem dedikdə yalnız insanların cəmi deyil, həm də onlar arasındakı qarşılıqlı münasibətlər nəzərdə tutulur. Daha sonra tanınmış alim "demokrafik homeostaz", "demoqrafik məhdudiyyət" və digər mühüm anlayışları tədqiqat prosesinə cəlb edərək, əhali artımının tarixi tiplərini müəyyənləşdirməyə nail olur. Vişnevskiy göstərir ki, əhali artımının tarixən üç əsas tipini ayırd etmək mümkündür. Onlardan birincisini *arxetip,* ikincisini *ənənəvi* və üçüncüsünü *rasional* və ya müasir adlandıran müəllif ardıcıl şəkildə hər üç tipin fərqləndirici xüsusiyyətlərini açmağa müvəffəq olur. Vişnevskiy göstərməyə çalışır ki, bir tipdən digərinə keçid zamanı əhali artımı sıçrayışla baş verir. Bu cür keçidi Vişnevskiy öz sələflərinin müəyyənləşdirdiyi kimi demoqrafik inqilab kimi dəyərləndirir. Demoqrafik inqilabın baş verməsindən bir müddət sonra əhali artımında müəyyən qədər stabilişmə meylləri özünü büruzə verir. Vişnevskiy onu da qeyd edir ki, əhali artımının kəskin xarakter alması müxtəlif regionlarda fərqli zamanlarda mümkün olmuşdur.

Demoqrafik inqilaba həsr edilmiş xüsusi monoqrafiyasında Vişnevskiy bildirir ki, birinci demoqrafik inqilab neolit dövründə baş vermişdir (1, s.29) və insanların mənimsəmə təsərrüfatından qidanın istehsal edilməsi təsərrüfatına keçidi prosesi ilə bağlı olmuşdur (2, s.55). Vişnevskiy göstərir ki, arxetip mərhələsində insanların yaşadığı ərazinin sahəsinə görə sıxlığı çox aşağı olmuşdur, yəni hər yüz kv. kilometrə təqribən 3-4 nəfər adam düşmüşdür. İbtidai icmaların əhali sayı müəyyən dərəcədə xarici mühütün təsirindən asılı olsa da (müxtəlif səbəblərdən uşaq ölümünün yüksək faizlə ölçülməsi), əsas etribarilə sosial amillər vasitəsilə nizamlanmışdır (müxtəlif tabular, nigah əlaqələrinin nizamlanması, uşaqların öldürülməsi və s.) (2, s.53). Yalnız birinci demoqrafik inqilabdan sonra, yəni əkinçiliyin aparıcı təsərrüfat sahəsi olması nəticəsində dünya əhalisinin sayı bir neçə dəfə artmışdır. Vişnevskiy hesab edir ki, əhali artımının baş verməsi həm də ailə institutunun cəmiyyət həyatında bərqərar olması hadisəsi ilə bağlı olmuşdur (2, s.57-58). Əhali artımının ənənəvi tipinin bərqərar olduğu dövrlərdə (bu mərhələ quldarlıq və feodalizm cəmiyyətləri ilə əlaqədardır) aqrar təsərrüfat hökm sürmüşdür. Nəhayət, kapitalist istehsal üsulunun meydana çıxması ilə ikinci demoqrafik inqilabın baş verməsi mümkün olmuşdur (2, s.61). Vişnevskiy bildirir ki, ənənəvi tipin dağılması yalnız o halda mümkün ola bilərdi ki, insanlar

torpağa təhkimçilik sistemindən azad olsunlar. Bu şəraitin yaranması isə kapitalist istehsal münasibətlərinin cəmiyyətdə bərqərar olması ilə reallaşmışdır. Vişnevskiy göstərir ki, əgər birinci demoqrafik inqilabın baş verməsi ilk növbədə əhalinin orta ölüm yaşının artması ilə bağlı olmuşdursa, ikinci demoqrafik inqilabın təzahür etməsi isə daha çox uşaq ölümü hallarının xeyli aşağı düşməsi səbəbi ilə şərtlənmişdir (1, s.192-193).

Yuxarıdakı fikirləri nəzərə alıb bir daha belə qənaətə gəlmək olar ki, Kapitsanın əhalinin artım dinamikasını əks etdirən riyazi modelləri yalnız mənsub olduğumuz bəşəriyyətin tarixi inkişafına şamil edildiyi təqdirdə daha adekvat cavabların əldə edilməsinə imkan verir. Digər tərəfdən, əvvəldə qeyd edildiyi kimi, Kapitsanın tədqiqatında olduqca dəyərli ideyalar da vardır ki, onlardan biri də tarixi prosesin gedişində sinxron hadisələrin qeydə alınması məsələsi ilə bağlıdır (5, s.277). Qeyd etmək yerinə düşər ki, tərəfimizdən irəli sürülən bəşəriyyətin intellektual inkişafının yaş dövrləşdirilməsi hipotezasının mühüm məqamlarını əks etdirən tədqiqat işində də tarixi prosesdə məhz sinxronluq prinsipinin özünü büruzə verməsi xüsusi olaraq göstərilmişdir (10).

Ədəbiyyat:

Вишневский А.Г. Демографическая революция, М., «Статистика», 1976, 240 с.

Вишневский А.Г. Воспроизводство населения и общество: История, современность, взгляд в будущее, М., «Финансы и Статистика», 1982, 287 с.

История первобытного общества. Эпоха первобытной родовой общины (под ред. академика Ю.В.Бромлея), М., Наука», 1986, 574 с.

Кабо В.П. Первобытная доземледельческая община, М., «Наука», 1986, 304 с.

Капица С.П., Курдюмов С.П., Малинецкий Г.Г. Синергетика и прогнозы будущего, М., «Эдиториал УРСС», 2001, 288 с.

Мезолит СССР. М., «Наука», 1989, 352 с.

Монгайт А.Л. Археология Западной Европы, М., «Наука», 1973, 356 с.

Философский словарь, М., «Политиздат», 1986, 590 с.

Хантингтон С. Столкновение цивилизаций, М., «Аст», 2006, 571с.

Hacıyev R.S. İntellektual inkişafın yaş dövrləşdirilməsinə dair //Dirçəliş - XXI əsr jurnalı (noyabr), Bakı, 2005, s.164-170.

Резюме

Демографические Проблемы в Глобальных Аспектах

Ровшан Гаджиев
Институт Философии
Национальной Академии Наук Азербайджана

В статье рассматриваются некоторые вопросы глобальной демографической проблемы. В частности, исследуются такие важные вопросы как проблема демографических революций, понятие исторического типа воспроизводства населения, а также новая теория по изучению динамики демографического развития, в которой применяется синергетический подход. В этой связи в статье рассматриваются оригинальные воззрения таких известных ученых как С.П.Капица, А.Г.Вишневский и других по изучаемой проблеме. В то же время в статье уделяется внимание критическому разбору некоторых идей, выдвигаемых со стороны известного русского ученого С.П.Капицы.

Ключевые слова: Глобальные демографические проблемы, народонаселение, развитие, динамика, глобальные аспекты

Summary

The Demographic Problems in Global Aspects

Rovshan Haciyev

Azerbaijan National Academy of Sciences, Institute of Philosophy

Some points of global demographic problems are considered in the article. In particular, there have been investigated such serious matters as the problems of demographic revolutions, the meaning of historical type of population's reproduction and a new theory for studying the dynamics of demographic development to which synergetic approach is applied. In this connection, some original points of view of such well-known scientists as A.G.Vishnevskij, S.P.Capitsa and others are considered. At the same time, there is paid attention to the critical analysis of some ideas put forward by S.P.Capitsa.

Key words: Global demographic problems, population, development, dynamic, global aspects